**AZƏRBAYCAN RESPUBLİKASI**
**İCBARİ TİBBİ SIĞORTA ÜZRƏ DÖVLƏT AGENTLİYİNİN**

# İDARƏ HEYƏTİNİN QƏRARI

**№____________**

**Bakı şəhəri** **"_____" _______________20____**

**İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin 2021-ci il 10 dekabr tarixli 43 nömrəli Qərarı ilə təsdiq edilmiş "Tibb müəssisələrində ixtisaslı kadr çatışmazlığının aradan qaldırılmasına dair 2022-2023-cü illər üçün Proqram"a və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin 2022-ci il 25 fevral tarixli 6 nömrəli Qərarı ilə təsdiq edilmiş "Xarici ölkədə təhsil almış həkim-mütəxəssislərə həvəsləndirici əlavənin tətbiq edilməsinin qiymətləndirilməsi üzrə Komissiya"nın Əsasnaməsi"nə dəyişikliklər edilməsi haqqında**

"Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsin (bundan sonra - TƏBİB) tabeliyindəki tibb müəssisələrində kadr çatışmazlığı probleminin aradan qaldırılması, tibbi xidmətlərin göstərilməsində qabaqcıl təcrübənin və müasir müalicə üsulların tətbiqinin stimullaşdırılması, kadr potensialının gücləndirilməsi və tibbi xidmətin keyfiyyətinin yüksəldilməsi nəticəsində əhalinin icbari tibbi sığorta çərçivəsində tibbi xidmətlərə çıxış imkanlarının genişləndirilməsi məqsədilə, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 6 sentyabr tarixli 1592 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Nizamnaməsi"nin 4.5.21-ci yarımbəndini rəhbər tutaraq, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyəti

**qərara alır:**

1. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin 2021-ci il 10 dekabr tarixli 43 nömrəli Qərarı ilə təsdiq edilmiş "Tibb müəssisələrində ixtisaslı kadr çatışmazlığının aradan qaldırılmasına dair 2022-2023-cü illər üçün Proqram"da (bundan sonra - Proqram) aşağıdakı dəyişikliklər edilsin:

1.1. adında "2023" rəqəmi "2024" rəqəmi ilə əvəz edilsin;

1.2. 2.1.3-cü yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 2.1.4-cü yarımbənd əlavə edilsin:

"2.1.4. əhalinin icbari tibbi sığorta çərçivəsində tibbi xidmətlərə çıxış imkanlarının genişləndirilməsi.";

1.3. 3.3-cü bənd ləğv edilsin;

1.4. aşağıdakı məzmunda 3-1-ci hissə əlavə edilsin:

**“3-1. Həvəsləndirici əlavələrin tətbiq edilməsi və müddəti**

3-1.1. Bir həkim-mütəxəssis üçün Proqramın 3.2-ci bəndində göstərilmiş həvəsləndirici əlavələrin ödənilməsi 1 il müddətinə nəzərdə tutulur.

3-1.2. Komissiya tibb müəssisəsinin rəhbərinin həkim-mütəxəssisə ehtiyac olması barədə “Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi” publik hüquqi şəxsə (bundan sonra – TƏBİB) ünvanlanmış təqdimatı və bu təqdimatın həmin tibbi müəssisənin zəruri maddi-texniki bazaya malik olduğuna dair Komissiyaya təqdim edilmiş müşayiət məktubu əsasında həkim-mütəxəssisə işə qəbul zamanı həvəsləndirici əlavələrin verilməsinə dair qərar qəbul edir.

3-1.3. Həkim-mütəxəssis bu Proqramın 6-cı hissəsində nəzərdə tutulmuş qaydada həyata keçirilən monitorinqdən müvəffəqiyyətlə keçmədikdə Komissiya həvəsləndirici əlavənin ödənilməsinin dayandırılması barədə qərar verir.

3-1.4. Həkim-mütəxəssis illik fəaliyyətinin nəticələrinə görə bu Proqramın 6-cı hissəsində nəzərdə tutulmuş qaydada həyata keçirilən monitorinqdən müvəffəqiyyətlə keçdikdə TƏBİB-in Agentliyə müraciəti əsasında Komissiya Proqramın 3-1.1-ci bəndində nəzərdə tutulan həvəsləndirici əlavənin ödənilməsinin növbəti 1 il müddətinə uzadılmasına qərar verir.

1.5. 5-ci hissə aşağıdakı redaksiyada verilsin:

**“5.Proqramın maliyyələşdirilməsi**

5.1. Proqramın maliyyələşdirilməsi icbari tibbi sığorta fondunun vəsaiti hesabına həyata keçirilir.

5.2. Proqramın 3.2-ci bəndində həkim mütəxəssislərə ödənilməsi nəzərdə tutulmuş həvəsləndirici əlavələrin məbləği müvafiq tibb müəssisəsinin rəhbərinin sifarişi əsasında icbari tibbi sığorta fondundan tibb müəssisələrində kadr potensialının gücləndirilməsi məqsədilə ayrılmış xərc maddəsində nəzərdə tutulan vəsait hesabına maliyyələşdirilir. Qaydaya uyğun olaraq həkim mütəxəssislərə işin nəticələrinə görə hesablanmış həvəsləndirici əlavələrin məbləği Proqramın 3.2-ci bəndində nəzərdə tutulmuş həvəsləndirici əlavələrin məbləğindən çox olduğu halda yaranacaq fərqin maliyyələşdirilməsi icbari tibbi sığorta fondundan “Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi” publik hüquqi şəxsin tabeliyindəki tibb müəssisələri üzrə icbari tibbi sığorta ödənişləri və dotasiya məbləği üzrə ayrılmış xərc maddəsində nəzərdə tutulan vəsait hesabına aparılır.”.

1.6. aşağıdakı məzmunda 6-cı hissə əlavə edilsin:

**“6. Monitorinqin həyata keçirilməsi**

Tibb müəssisələrində işə qəbul olunan həkim-mütəxəssislərin fəaliyyətinin və iş şəraitinin qiymətləndirilməsi məqsədi ilə Agentliyin İdarə Heyəti sədrinin əmri ilə təsdiq edilmiş tərkibdən ibarət Monitorinq Komissiyası tərəfindən bir həkim-mütəxəssis üçün 6 aylıq əsaslarla bu sənədin əlavəsində müəyyən edilmiş qayda əsasında monitorinq həyata keçirilir və monitorinqin nəticələri İdarə Heyətinə məruzə edilir, TƏBİB-ə və Komissiyaya təqdim edilir.”.

2. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin 2022-ci il 25 fevral tarixli 6 nömrəli Qərarı ilə təsdiq edilmiş “Xarici ölkədə təhsil almış həkim-mütəxəssislərə həvəsləndirici əlavənin tətbiq edilməsinin qiymətləndirilməsi üzrə Komissiya”nın Əsasnaməsi”nə aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1.1-ci bənddə “2023” rəqəmi “2024” rəqəmi ilə əvəz edilsin;

2.2. 3.2.1-ci yarımbəndində “6.1” rəqəmi “7.1” rəqəmi ilə əvəz edilsin;

2.3. aşağıdakı məzmunda 3.2.1-1-ci yarımbənd əlavə edilsin:

“Bu Əsasnamənin 7.1.7-ci yarımbəndinə əsasən həkim-mütəxəssislərə həvəsləndirici əlavələrin tətbiq edilməsinin dayandırılması barədə qərar qəbul etmək;”;

2.4. 4.1.1-ci yarımbənddə “məqsədəuyğunluğu” sözündə sonra “ və ya dayandırılması” sözləri əlavə edilsin;

2.5. aşağıdakı məzmunda 4.2.1-1-ci yarımbənd əlavə edilsin:

“4.2.1-1. Proqramın 3.5-ci bəndində nəzərdə tutulmuş sənədlərin təqdim edilməsinə nəzarət etmək;”;

2.6. 7.1.4-cü yarımbənddə “uzmanlıq təhsilindən” sözləri “xarici ölkələrdə aldığı ali ixtisas tibb təhsilindən (diplomdan sonrakı ixtisaslaşma hazırlığından)” sözləri ilə əvəz edilsin;

2.7. 7.1.6-cı yarımbənddə nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 7.1.7-ci yarımbənd əlavə edilsin:

“7.1.7. Proqramın 6-cı hissəsində nəzərdə tutulan monitorinqin nəticələri.”.

3. Bu Qərar qüvvəyə mindiyi tarixədək həvəsləndirici əlavələrinin tətbiqi müddəti bitmiş həkim-mütəxəssislərin fəaliyyətinin Proqram çərçivəsində uzadılması yalnız TƏBİB-in əsaslandırılmış müraciəti əsasında “Xarici ölkədə təhsil almış həkim-mütəxəssislərə həvəsləndirici əlavənin tətbiq edilməsinin qiymətləndirilməsi üzrə Komissiya”nın qərarı ilə həyata keçirilsin.

4. Həvəsləndirici əlavələrinin tətbiqi müddəti bitən həkim-mütəxəssislərin fəaliyyətinin proqram çərçivəsində uzadılmasına qərar verildiyi təqdirdə, həvəsləndirici əlavələr onlara verilən əlavələrin başa çatdığı tarixdən hesablansın və ödənilsin.

5. Bu Qərardan irəli gələrək maliyyələşdirmə ilə bağlı xərclərin icbari tibbi sığorta fondunun 2024-cü il büdcəsində nəzərə alınması və 4-cü hissənin icrasından irəli gələ maliyyə məsələlərinin həlli Maliyyə departamentinə (R. Həsənov) tapşırılsın.

6. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin struktur bölmələrinin, o cümlədən “Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi” publik hüquqi şəxsin və onun tabeliyindəki tibb müəssisələrinin bu Qərarla tanış edilməsi Vətəndaş müraciətləri və sənədlərlə iş departamentinin rəhbərinə (E.Mikayılov) tapşırılsın.

7. Bu Qərarın Agentliyin rəsmi internet səhifəsində yerləşdirilməsi Marketinq və ictimaiyyətlə əlaqələr departamentinə (A.Əhmədova) tapşırılsın.

8. Bu Qərarın icrasına ümumi nəzarət İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyəti sədrinin müavini Nigar Bayramovaya həvalə edilsin.

**İdarə Heyətinin sədri** ________________ **Zaur Əliyev**

M.Y.

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin
İdarə Heyətinin 2021-ci il 10 dekabr tarixli
43 nömrəli Qərarı ilə təsdiq edilmiş
“Tibb müəssisələrində ixtisaslı kadr çatışmazlığının aradan qaldırılmasına dair
2022-2024-cü illər üçün Proqram”ına
Əlavə

**Həkim-mütəxəssislərin monitorinqinin aparılması**
**Qaydası**

## 1. Ümumi müddəalar

1.1. Bu Əlavə bir həkim-mütəxəssisin Proqram çərçivəsində altı aylıq müddət ərzində fəaliyyətinin Monitorinq Komissiyası (bundan sonra – Komissiya) tərəfindən fəaliyyət göstəricilərinə uyğunluğunun qiymətləndirilməsinə dair münasibətləri tənzimləyir.

1.2. Hər bir həkim-mütəxəssis Proqram çərçivəsində fəaliyyətinin davam etdirilməsi üçün bu Qaydada nəzərdə tutulmuş göstəricilərə uyğun fəaliyyət göstərməlidirlər.

## 2. Fəaliyyət göstəriciləri

2.1. Həkim-mütəxəssisin fəaliyyətinin Komissiya tərəfindən qiymətləndirilməsi göstəriciləri aşağıdakılardır:

2.1.1 peşəkar fəaliyyət;

2.1.2. şəxsi keyfiyyətlər.

## 3. Peşəkar fəaliyyətə dair göstəricilər

3.1. Həkim-mütəxəssisin altı aylıq müddət ərzində peşəkar fəaliyyəti üzrə yerinə yetirilməli olan göstəricilər aşağıdakılardır:

3.1.1. cərrahi ixtisaslar üzrə icra edilən əməliyyat sayının 120-dən az olmaması;

3.1.2. terapevtik ixtisaslar üzrə müayinə edilən pasiyent sayının 2400-dən az olmaması;

3.1.3. radioloq ixtisası üzə təhlil edilən nəticələrin sayının 1200-dən az olmaması;

3.1.4. anestezioloq-reanimatoloq ixtisası üzrə iştirak edilən əməliyyat sayının 240-dan az olmaması.

3.1.5. tibbi xidmət göstərdiyi pasiyentlərin 70%-inin məmnunluq göstəricisinin olması;

3.1.6. altı dəfədən az olmayaraq öz ixtisası üzrə təqdimat etməsi;

3.1.7. altı dəfədən az olmayaraq klinik halın müzakirəsini təşkil etməsi;

3.1.8. bir dəfədən az olmayaraq elmi-praktik konfranslarda iştirak etməsi;

3.1.9. ən azı iki həkim-assistentin bilik və bacarıqlarının inkişafına cəlb edilməsi.

## 4. Şəxsi keyfiyyətlərə dair göstəricilər

Həkim-mütəxəssisin şəxsi keyfiyyətləri, onun sərgilədiyi davranış (öz bilikləri ilə digər əməkdaşlara bölüşməyə hazır olması, tövsiyələri ilə məsləhət verməyə hazır olması və s.), etik qaydalara riayət etməsi, tibb müəssisəsinin nüfuzunun artmasına verdiyi töhfə (həmin ixtisas üzrə pasiyent müraciətinin artması, mediada səsləndirilməsi və s.), tibb müəssisəsinin inkişafını təmin etmək üçün öz ixtisası üzrə öncədən tibb müəssisəsində istifadə edilməyən innovativ metodların araşdırılması və tətbiqinə dair göstərilən səylər üzrə dəyərləndirilir.

## 5. Monitorinqin aparılması şərtləri

5.1. Monitorinq Komissiyası 3-cü hissədə nəzərdə tutulan göstəricilərin monitorinqini təmin etmək məqsədilə xəstəlik tarixçələri, ambulator kartlar, digər tibbi sənədlər və seçmə üsulu ilə aparılan pasiyent məmnuniyyətinə dair sorğunun nəticələri rəhbər tutulur.

5.2. Monitorinq Komissiyası 4-cü hissədə nəzərdə tutulan göstəricilərin monitorinqini təmin etmək məqsədilə tibb müəssisəsi rəhbərinin təqdimatı və digər təsdiqedici sənədləri, habelə 3.5 bal keçid olmaqla tibb müəssisəsinin rəhbəri tərəfindən doldurulan aşağıdakı qiymətləndirmə forması rəhbər tutulur:

| **No.** | **Həkim-mütəxəssisinin şəxsi keyfiyyətlərinin göstəriciləri** | **Uğursuz 1 bal** | **Zəif 2 bal** | **Qənaətbəxş 3 bal** | **Uğurlu 4 bal** | **Çox uğurlu 5 bal** |
|---|---|---|---|---|---|---|
| **1.** | Sərgilədiyi davranış (öz bilikləri ilə digər əməkdaşlara bölüşməyə hazır olması, tövsiyələri ilə məsləhət verməyə hazır olması və s.) | | | | | |
| **2.** | Etik qaydalara riayət etməsi | | | | | |
| **3.** | Tibb müəssisəsinin nüfuzunun artmasına verdiyi töhfə (həmin ixtisas üzrə pasiyent müraciətinin artması, mediada səsləndirilməsi və s.) | | | | | |
| **4.** | Tibb müəssisəsinin | | | | | |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | inkişafını təmin etmək üçün öz ixtisası üzrə öncədən tibb müəssisəsində istifadə edilməyən innovativ metodların araşdırılması və tətbiqinə dair göstərilən səylər | | | | | |

5.3. Bu Əlavənin 3-cü və 4-cü hissələrində nəzərdə tutulmuş göstəricilərə cavab verməyən həkim-mütəxəssislərə verilən həvəsləndirici əlavələrin verilməsi Proqramın 3-1.3-cü bəndinə əsasən dayandırılır.